# 525-ci qəzet

24 iyul 2012-ci il, çərşənbə axşamı №130 (3686). Qiyməti 20 qəpik

www.525.az


## Ali məktəblərin I ixtisas qrupuna keçid balı aşağı salındı

TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMİSSİYASI I QRUPA KEÇİD BALINI 250-dən 150-ə ENDİRDİ

Azərbaycanda ali məktəblərin I ixtisas qrupu üzrə minimal keçid balı aşağı salınıb. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) mətbuat xidmətinin rəhbəri Elnur Nağızadənin APA-ya verdiyi məlumata görə, bu il I qrup üzrə ixtisas seçimində ümumi balı 150-dən, hər hansı bir imtahan fənni istisna olmaqla qalan dörd imtahan fənninin hər biri üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər.

Ümumi balı 350 və daha çox olan abituriyentlərin ixtisas seçiminə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur. Dövlət sifarişi əsasında ayrılmış yerlərin ixtisas seçimində ümumi balı 250-dən və hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək üçün qoyulan tələbləri ödəyən abituriyentlər avqustun 7-dən 16-dək "Abituriyentin elektron ərizəsi"ndə ixtisasları seçib təsdiq etməlidirlər.

Bu arada Azərbaycanda ali məktəblərin I ixtisas qrupu üzrə qəbul imtahanlarının nəticələri açıqlanıb. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının mətbuat xidmətindən verilən xəbərə görə, imtahanın nəticələri TQDK-nın rəsmi internet saytında yerləşdirilib. Abituriyentlər imtahanın nəticələri barədə məlumatı həmçinin mobil telefonla 7727 nömrəsinə iş nömrələrini göndərməklə öyrənə bilərlər.

Qeyd edək ki, ali məktəblərin I ixtisas qrupu üzrə qəbul imtahanları iyulun 20-də Bakı, Gəncə, Sumqayıt, Şəki, Lənkəran və Naxçıvanda keçirilib. I ixtisas qrupu üzrə test imtahanının nəticəsi əsasında imtahan ballarının paylanması "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc olunacaq.




İxtisas seçimi avqustun 7-dən avqustun 16-dək internet vasitəsilə aparılacaq.

İxtisas qrupu üzrə imtahanda iştirak etmək üçün sənəd vermiş 33533 abituriyentlərdən 44 nəfəri imtahanda iştirak etməyib. İmtahanda iştirak edən 32034 abituriyentdən 44 nəfəri qaydalara zidd hərəkətlərə yol verdiklərinə görə imtahandan xaric olunub və nəticələri ləğv edilib. Test imtahanının nəticəsinə əsasən, 11256 abituriyent (xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə iştirakçıları istisna olmaqla) müsabiqədə iştirak etmək hüququ qazanıb.

**Britaniyalı parlamentar Kristofer Pinçer:**

## "Dağlıq Qarabağ müstəqil ərazi vahidi kimi mövcud deyil, ona görə də hər hansı şəffaf və həqiqi seçki keçirə bilməz"

**Böyük Britaniya-Azərbaycan parlamentlərarası işçi qrupunun rəhbəri Kristofer Pinçerin APA-ya müsahibəsi**

***— Azərbaycana səfəriniz necə keçdi? Səfər zamanı hansı məsələlər müzakirə olundu?***

— Biz Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri olaraq Azərbaycanda çox maraqlı görüşlər keçirdik. Üç gün ərzində Bakıda və Qəbələdə olduq, Britaniya səfiri, Azərbaycanın xarici işlər naziri, Neft Fondunun icraçı direktoru ilə görüşlər keçirdik, ATƏT-in Bakı ofisi və Avropa Birliyinin nümayəndəliyini ziyarət etdik. Qəbələdə piano zavodunda, "Jalə" şirələri istehsal edən müəssisədə, Olimpiya İdman Mərkəzində olduq. Avropa-Azərbaycan Cəmiyyəti (TEAS) tərəfindən təşkil olunan səfər qrafiki çox sıx idi və detallara böyük diqqət yetirilmişdi. Azərbaycan çox xoşuma gəldi. Çox müasir və tolerant, hətta mən deyərdim ki, pozitiv mənada unikal cəmiyyətiniz var. Səfər zamanı biz kilsə və yəhudi sinaqoquna da getdik. Bu, Azərbaycanda bütün dinlərə və dini icmalara hörmət olduğunun göstəricisidir. Görüşlərdə biz müxtəlif regional məsələlərə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə toxunduq. Qəbələdə məcburi köçkün düşərgəsinə baş çəkdik.




*Ardı 3-cü səh.*


## Azərbaycanla İran həbsdəki şairlərimizlə bağlı razılıq əldə edib

***ELMAN ABDULLAYEV:*** "HAZIRDA AZƏRBAYCANLI DİPLOMATIN ŞAİRLƏRLƏ GÖRÜŞÜNÜN DETALLARI İRAN TƏRƏFİ İLƏ RAZILAŞDIRILIR"

Azərbaycanın Tehrandakı səfirliyi ilə İran tərəfi arasında aparılan danışıqlar nəticəsində Azərbaycanın diplomatik nümayəndəsinin bu ölkədə saxlanan azərbaycanlı şairlər Fərid Hüseyn və Şəhriyar Hacızadə ilə görüşü barədə razılaşma əldə olunub. Bu barədə APA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev məlumat verib. Onun sözlərinə görə, hazırda görüşün tarixi və digər detalları İran tərəfi ilə razılaşdırılır.

## Ağdamın işğalının 19-cu ildönümünə həsr olunmuş anım mərasimi keçirilib

Dünən Bakıda Şəhidlər Xiyabanında Ağdam rayonunun işğalının 19-cu ildönümü anılıb.

APA-nın məlumatına görə, bu münasibətlə Ağdam rayonunun ictimaiyyəti, Azərbaycanda fəaliyyət göstərən bir sıra təşkilatların üzvləri Şəhidlər Xiyabanını ziyarət ediblər. Ümumilikdə ziyarət mərasimində 3 minə yaxın insan iştirak edib. Ziyarətə Ağdam Rayon İcra Hakimiyyəti, hüquq-mühafizə orqanları ilə yanaşı Ağdamdan olan parlament üzvləri, "Dağlıq Qarabağın azərbaycanlı icması" İctimai Birliyinin rəhbərliyi qatılıb. Tədbir iştirakçıları şəhidlərin məzarını ziyarət edib, Əbədi Məşəl Kompleksi önünə əklil qoyublar. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Nizami Sadıqov jurnalistlərə açıqlamasında bildirib ki, bu gün rayonun işğaldan azad olunmuş ərazilərində 17 yeni qəsəbə inşa olunub və burada 40 mindən çox əhali məskunlaşıb. Ümumilikdə Ağdamın işğal altında olmayan ərazilərində 90 min əhali yaşayır.

İcra hakimiyyətinin başçısı son zamanlar Ermənistan Silahlı Qüvvələri tərəfindən Ağdamın işğal altındakı ərazilərində təlimlərin keçirilməsinə də münasibət bildirib: "Hər dəfə regiona beynəlxalq təşkilatlardan yüksək səviyyəli qonaqlar gələndə ermənilər belə addımlar atırlar. Son zamanlar baş verənlər də onların təmas xəttində növbəti təxribatıdır".

Tədbir ikinci Fəxri Xiyabanda dəfn edilmiş ağdamlı şəhidlərin məzarlarının ziyarəti ilə başa çatıb.

## Gələn ay Azərbaycana sualtı seysmik stansiyalar gətiriləcək

XƏZƏRDƏ QURAŞDIRILACAQ SUALTI SEYSMİK STANSİYALARIN TEXNİKİ ŞƏRTLƏRİ AZƏRBAYCANA GÖNDƏRİLİB

Xəzərin Azərbaycan sektorunda sualtı seysmik stansiyalar quraşdıracaq Amerikanın "Kinemetrics" şirkəti stansiyaların texniki şərtlərini Azərbaycana göndərib. Bu barədə APA-ya Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktou Qurban Yetirmişli bildirib. Onun sözlərinə görə, avqustun sonlarına qədər sualtı seysmik stansiyalar ölkəyə gətiriləcək. O vaxta qədər Azərbaycan tərəfi sualtı seysmik stansiyaların quraşdırılması üçün tələb olunan bütün prosedurları həll edəcək. Stansiyalar sentyabr ayında "Ümid", "Günəşli" və "Bahar" yataqlarında quraşdırlacaq.

## Ermənilər atəşkəsi yenə pozublar

Azərbaycan torpaqlarının bir hissəsini işğal altında saxlayan Ermənistan Silahlı Qüvvələri qoşunların təmas xəttində atəşkəs rejimini pozmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, erməni silahlı bölmələri dünən və bu gecə Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Sarıcalı, Füzuli rayonunun Qorqan və Aşağı Əbdürrəhmanlı kəndləri yaxınlığında və Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

## Bakıda 38 dərəcə isti olacaq

Bu gün Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, şimal-qərb küləyi gündüz cənub küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 23-27, gündüz 33-38 dərəcə isti olacaq. Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27, Türkan, Hövsan, Sahil, Şıxda 27-28 dərəcə isti təşkil edəcək.Azərbaycanın rayonlarında sabah hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 22-27 dərəcə isti olacaq.

Tibbi-meteoroloji proqnoza əsasən, iyulun 24-25-də Abşeron yarımadasında zəif küləkli və bəzi saatlarda havada yaranan durğunluqla yanaşı güclü isti hava şəraiti meteohəssas insanlar üçün əlverişsizdir. Gündüz saatlarında uzun müddət açıq havada qalmaq məsləhət görülmür.

## "Müharibə başlasa, Rusiya sözsüz ki, Ermənistanı müdafiə edəcək"

**Rusiyalı tanınmış hərbi ekspert, "Nezavisimoe voennoe obozrenie" qəzetinin baş redaktoru Viktor Litovkinin APA-ya müsahibəsi**

***— Rusiya ilə Azərbaycan arasında Qəbələ RLS-in icarə haqqının artırılması ilə bağlı aparılan danışıqların nəticəsi necə olacaq?***

— Hesab edirəm ki, bu problem tezliklə öz həllini tapacaq və hər iki tərəfi qane edən razılıq əldə olunacaq. Qəbələ RLS təkcə Rusiyanın marağında deyil, o həm də Azərbaycanın marağındadır. Azərbaycanın marağı ondan ibarətdir ki, ölkə bu RLS vasitəsilə raket hücumundan müdafiə sistemində iştirak edir. Avropanın və Rusiyanın bir hissəsini əhatə edən bir sistemdə iştirak etmək Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyır. Digər maraq isə iqtisadiyyatla bağlıdır. Bu maraq təkcə Qəbələ RLS-in icarə haqqından gələn gəlirdən ibarət deyil. Bildiyiniz kimi, Qəbələ RLS-də Azərbaycan vətəndaşları da çalışır və həmin vətəndaşlar Rusiya dövlətindən məvacib alırlar.

Azərbaycanda Qəbələ RLS-in olması onun hərbi gücünün də göstəricisidir. Hələ ki, Rusiya ilə NATO-nun birgə raket hücumundan müdafiə sistemi yaradılması barəsində razılığa gəlməyib. Lakin bu baş tutsa, Azərbaycan bu sistemin qurulmasında iştirak edə biləcək. Bu, Azərbaycana sərf edəcək bir məqamdır. O ki qaldı Qəbələ RLS-in icarə haqqının artırılması ilə bağlı mətbuatda yazılan rəqəmlərə, hesab ediəm ki, bu, spekulyativ xarakter daşıyır. Şərq bazarında hər zaman belə olub. Əvvəlcə daha yüksək rəqəm deyirlər. Sonda isə həmin rəqəmdən bəzən iki dəfə az, bəzən də dörd dəfə az rəqəm barədə razılığa gəlinir. Düşünürəm ki, Azərbaycan öz ərazisində RLS-in olmasının dəyərini anlayır və buna görə mümkün qədər güzəştə gedə bilər.

***— Qəbələ RLS-i itirmək Rusiya üçün hansı anlama gəlir?***




*Ardı 3-cü səh.*





# Bir qrup kinematoqrafçı Azərbaycan Kinematoqrafçılar İttifaqını tərk etdi

## *CƏMİL QULİYEV:* "MƏN RÜSTƏM İBRAHİMBƏYOVA DAŞ ATMIRAM, ƏKSİNƏ O, TOP VURUB KİNEMATOQRAFÇILAR İTTİFAQINI PARÇALADI"

Xalq artistləri Yalçın Əfəndiyev, Nuriyyə Əhmədova, Naxçıvan MR-in əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, əməkdar mədəniyyət işçiləri Pərviz Quliyev, Kamil Məmmədov, əməkdar artist Azad Şükürov, rejissorlar Rövşən İsmayılov, İlqar Safat, rəssam Mehriban Əfəndiyeva, aktyor Arif Kərimov öz ərizələrilə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqını tərk ediblər. Bu barədə "Trend"ə Kinematoqrafçılar İttifaqından məlumat veriblər. İttifaqı tərk edənlər üzv olmaq üçün Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqına müraciət ediblər.



Məlumata görə, AKİ-dən çıxmaq barədə müraciət edənlər təzyiq və hədələrlə üzləşsələr də, ittifaqı tərk etmək üçün müraciət edənlərin sayı günü-gündən artır.

"Mən Rüstəm İbrahimbəyova daş atmıram, əksinə o, top vurub Kinematoqrafçılar İttifaqını parçaladı". Bu fikirləri" isə Trend"ə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının katibi, Dövlət Film Fondunun direktoru Cəmil Quliyev Mehriban Vəzir və Cəmil Həsənlinin ona qarşı ittihamına cavabında deyib. C.Quliyev bildirib ki, Mehriban Vəzir və Cəmil Həsənli öz siyasətini yeritməyə görə cəmiyyətdə yeni ittifaqa qarşı mənfi rəy yaratmaq üçün müxtəlif yollara əl atırlar.

Qeyd edək ki, Mehriban Vəzir mətbuata açıqlamasında bildirib ki, Cəmil Quliyev İbrahimbəyovdan qat-qat cavandır və yaradıcılığı müqayisəyə gəlmir. Özündən çox yuxarıda dayanana daş atmağa başlayır. Cəmil Həsənli isə mətbuata açıqlamasında deyib ki, Cəmil Quliyev Azərbaycan Kinematoqrafçılar İttifaqında baş verənlərə heç vaxt etiraz etməyib. "Bu yollardan biri Rüstəm İbrahimbəyovun müdafiəsini təşkil etməkdir. İbrahimbəyovun kifayət qədər savadı və vəsaiti var ki, özünə vəkil tutsun və onlar kimi vəkillərə ehtiyacı yoxdur. Mehriban Vəzir və Cəmil Həsənliyə bir neçə tövsiyə vermək istəyirəm. Birincisi, siyasətlə sənət arasında böyük fərq var, onlar bunu unutmasınlar. Siyasətdə aparılan oyunlar sənətdə keçmir. Kino sənətinin xüsusiyyətlərini və Kinematoqrafçılar İttifaqının daxilində gedən prosesləri yaxşı öyrənib sonra insanları ittiham etmək lazımdır. Boş-boşuna bizim ünvanımıza ittiham yağdırmasınlar. Bu, insanlarda gülüş doğurur. Cəmil Həsənli deyir ki, guya mən və Oqtay Mirqasım heç vaxt İttifaqın iclaslarında problem haqqında danışmamışıq. Bu belə deyil. Oqtay Mirqasımov dəfələrlə iclaslarda Rüstəm İbrahimbəyovun apardığı siyasəti tənqid edib, lakin İttifaqın katibləri onu heç vaxt dəstəkləməyib və o etiraz edərək İttifaqın iclaslarında daha iştirak etməyib. Bunun əvəzində Oqtay Mirqasımova qarşı İttifaqda kampaniya aparılıb. İmzalar toplanılıb və 2008-ci il İttifaqın qurultayında İttifaqın siyasətini tənqid etdiyinə görə Oqtay Mirqasımov katib seçilməyib. İttifaqda hər zaman demokratiya və açıq sözə qarşı mübarizə aparılıb. 2001-ci ildə mən və Vaqif Mustafayev Azərbaycan kinoteatrında keçirilən konfransda İttifaqın apardığı siyasəti ciddi tənqid etdik. Təxminən bir neçə aydan sonra Rüstəm İbrahimbəyov öz əlaqələri vasitəsilə məni "Yaddaş" dövlət kinostudiyasından işdən çıxartdırdı. İttifaqın 2 il bundan qabaq keçirilən iclasında mən Rüstəm İbrahimbəyova söylədim ki, iclaslarda siyasi məsələlərə qətiyyən toxunmaq olmaz. Bu yaradıcı ittifaqdır və yaradıcı işlərlə məşğul olmalıdır. Etiraz edərək mən ondan sonra İttifaqın heç bir iclasında iştirak etmədim", — Dövlət Film Fondunun direktoru vurğulayıb.

C.Quliyev Mehriban Vəzirin ittihamlarına cavab verərək bildirib ki, onun Rüstəm İbrahimbəyovla yaş fərqi o qədər də çox deyil. "Öz mövqeyimi bildirməyə yaş fərqinin heç bir əhəmiyyəti yoxdur. Siz söyləyirsiz ki, mənim yaradıcılığım Rüstəm İbrahimbəyovun yaradıcılığı ilə yanaşı dura bilməz. Mən sizə demək istərdim ki, kino sahəsində savadım kifayət qədər çoxdur. Savadım olmasaydı, Rüstəm İbrahimbəyov məni kino ittifaqının katibi seçməzdi. Mən sadəcə, öz mövqeyimi bildirmişəm. Biz yeni təşkilatıq, bu təşkilatın fəaliyyəti çoxunu narahat edir, çünki biz işləyəcəyik və köhnə ittifaqın fəaliyyətsizliyi üzə çıxacaq", — Cəmil Quliyev deyib.

# Nəsimi rayonundan yazan jurnalistlər mükafatlandırıldı

İyulun 23-də Nəsimi Rayon İcra Hakimiyyəti və Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun "Nəsimi rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və prespektivlər" mövzusunda birgə təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Toplantını giriş sözü ilə açan Nəsimi Rayonun İcra Hakimiyyətinin başçısı Nəsib Məhəməliyev artıq müsabiqənin yekunlaşdığını və qaliblərin müəyyənləşdirildiyini bildirib. Mətbuatın cəmiyyətdə aparıcı qüvvəyə çevrildiyini deyən icra başçısı jurnalistləri Milli Mətbuat Günü münasibəti ilə təbrik edib və gələcək işlərində onlara uğurlar arzulayıb. Mərasim iştirakçılarını salamlayan Fondun icraçı direktoru Vüqar Səfərli qeyd edib ki, müsabiqənin keçirilməsində məqsəd Nəsimi rayonunun sosial-iqtisadi və ictimai həyatında baş verən yenilikləri mətbuat vasitəsi ilə ictimaiyyətə daha yaxından çatdırmaqdır.



Milli Mətbuatımızın çətin və şərəfli yol keçdiyini söyləyən icraçı direktor bir həftədir ölkədə Milli Mətbuatın 137-ci ildönümü ilə bağlı tədbirlərin keçirildiyini bildirib. Dövlətin müstəqil mətbuata daimi qayğı göstərdiyini söyləyən Vüqar Səfərli mətbuatımızın qədim tarixə malik olduğunu deyib: "Mətbuatımızın keçdiyi tarixi 3 mərhələyə; Sovetlərə qədər, sovetlər və müstəqilik dövrünə bölmək olar. Müstəqillik dövrünün ilk illərində qəzetlərin sayı çoxalsa da maliyyə çətinlikləri onların nəşrinə problemlər yaratmağa başladı. Qəzetlərin tirajı azaldı. Hətta bir çox qəzetlər bağlandı. Qəzetlərin nəşriyyata külli miqdarda borcu yarandı. Belə bir məqamda qəzetlərin baş redaktorları ölkə başçısına müraciət etdilər və ulu öndər Heydər Əliyev humanist addım ataraq qəzetlərin nəşriyyata olan borcunu bir müddət dondurulması barədə qərar verdi. Amma buna baxmayaraq müstəqil qəzetlər yenə də maliyyə böhranından qurtula bilmədilər. Belə olan təqdirdə qəzetlərin nəşriyyata olan borcu dövlət büdcəsi hesabına ödənildi". Azərbaycan mətbuatının müstəqillik dövründə böyük uğurlar qazandığını söyləyən icraçı direktor bu sahədə Fondun xidmətlərindən danışdı: "Fond yarandıqdan sonra müstəqil qəzetlərin maddi durumu xeyli yaxşılaşıb. Hər il Fondun dəstəyi ilə onlarla treninq və müsabiqələr keçirilir". Bu cür tədbirlər gələcəkdə də davam etdiriləcəyini vurğulayan Vüqar Səfərli qeyd edib ki, Fondun son illərdə həyata keçirdiyi mühüm layihələrdən biri də kütləvi informasiya vasitələri ilə yerli icra hakimiyyəti orqanları arasında əlaqələrin inkişaf etdirilməsidir. İcraçı direktor belə tədbirlərin mətbuat nümayəndələri ilə yerli icra strukturları arasında əməkdaşlıq münasibətlərinin daha da genişlənməsinə təkan verdiyini deyib. O, həmçinin bu cür tədbirlərin jurnalistlərin sosial durumunun yaxşılaşdırılması baxımından faydalı olduğunu da bildirib.

Vüqar Səfərli ötən ay Fondun təşəbbüsü ilə Nəsimi rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildiyini deyib: "Tanınmış KİV rəhbərlərinin iştirak etdiyi həmin görüşdə rayon icra hakimiyyəti ilə birgə fərdi jurnalist müsabiqəsinin keçirilməsi qərara alınıb: Müsabiqəyə ümumilikdə 35 yazı daxil olub. Lakin yazılardan biri şərtlərə cavab vermədiyindən müsabiqədən çıxarılıb. Bu səbəbdən də 34 yazı 6 ekspert tərəfindən qiymətləndirilib. Yazlardan 6-sı qalib hesab edilmişdi. Müsabiqənin şərtlərinə əsasən I yerin qalibinə — 1000 manat, II yer (2 nəfər) 800 manat, III yerin (3 nəfər) qalibinə isə 600 manat məbləğində pul mükafatı və xüsusi diplomların verilməsi qərara alınmışdır. Bunlardan əlavə 10 nəfərə həvəsləndirici mükafat verilməsi nəzərdə tutulub".

Qalibləri təbrik edən Fondun icraçı direktoru Vüqar Səfərli çıxışının sonunda Mətbuat Günü münasibəti ilə qalibləri və toplantı iştirakçılarını təbrik edib.

Daha sonra mükafatlandırma mərasimi keçirilib və qaliblərə xüsusi diplom və pul mükafatları təqdim olunub.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Nəsib Məhəməliyev sonda belə müsabiqələrin jurnalist peşəkarlığının artırılmasında xüsusi rol oynadığını vurğulayaraq Milli Mətbuatın 137-ci il dönümü ilə əlaqədar qalibləri və Fondun icraçı direktorunu təbrik edib.

# *Qətibə Əsədova:* "Təəssüf ki, bəzi valideynlər öz övladlarına baş çəkməyə gəlmirlər"

Parlament Jurnalistləri Birliyi və millət vəkili Fuad Muradovun təşəbbüsü ilə 22 İyul — Milli Mətbuat gününə həsr olunan tədbir Abşeron rayonu, Saray qəsəbəsində yerləşən 7 nömrəli Uşaq İnternat evində baş tutub. Mətbuat gününü fiziki qüsurlu uşaqlarla birgə qeyd edək parlament jurnalistləri Həsən bəy Zərdabidən başlayan bu günün gənclərlə keçirilməsinin vacib olduğunu diqqətə çatdırıblar. Mərasimdə çıxış edən İnternat evinin direktoru Qətibə Əsədova uşaqlara göstərilən diqqətə görə qonaqlara təşəkkürünü bildirib və jurnalistləri mətbuat bayramı münasibətilə təbrik edib. O, eyni zamanda, bu müəssisənin 1984-cü ildən fəaliyyət göstərdiyini və bir direktor kimi burada bu ilin yanvar ayından işlədiyini diqqətə çatdırıb. Uşaqlarla, xüsusilə, fiziki qüsurlu uşaqlarla işləməyin çətin, lakin onun üçün şərəfli bir iş olduğunu qeyd edən Q.Əsədovanın sözlərinə, burada uşaqlar bu gün dövlətin tam diqqəti və qayğısı ilə əhatə olunub. Direktor qeyd edib ki, bir vaxtlar çox bərbad durumda olan bu müəssisə Heydər Əliyev Fondunun prezidenti, milllət vəkili Mehriban Əliyevanın xüsusi qayğısı, diqqəti sayəsində bugünkü müasir tələblərə cavab verən bir İnternat evi vəziyyətinə gətirilib. Fəaliyyətə başladığı ilk günlərdə bu müəssisədə 134 uşaq və yeniyetmənin olduğunu deyən direktor 18 yaşdan yuxarı olanların sonradan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyindəki digər müvafiq internat evlərinə yerləşdirildiyini də bildirib: "Bizim müəssisəmiz əsasən 8-18 yaşlı uşaqlar, yeniyetmələr üçün nəzərdə tutulub. Eyni zamanda, buranın kontingeti daha çox qadınlardan ibarət olduğu uçun 18 yaşından yuxarı olanlara baxmaq çətinlik yaradır. Odur ki, biz 18 yaşından yuxarı olanların bir qismini məhz onlar yaşda olanlar üçün nəzərdə tutulan İnternat evlərinə yerləşdirdik. Amma qeyd edim ki, hələ də 18 yaşından yuxarı olan uşaqlar var ki, bizim İnternat evində qalmaqdadırlar və inanıram ki, onlar da yaxın vaxtlarda müvafiq internat evlərinə yerləşdiriləcəklər. Onu da deyim ki, hazırda İnternat evimizdə 122 nəfər fiziki qüsurlu uşaq var. Mən çox istərdim ki, o uşaqlardan hansıların ki, valideynləri var, sağdırlar, onlar İnternat evi tərəfindən müəyyənləşdirilmiş "valideyn günündə" öz övladlarına baş çəksinlər, öz nəvazişlərini onlardan əsirgəməsinlər. Buna həmin uşaqların böyük ehtiyacı var . Ancaq təəssüf hissi ilə demək istəyirəm ki, valideynlərdən öz övladlarının yanına, onların görüşünə gələnlər çox az olur. Bununla belə, 94 nəfərdən və daha çox da yerli sakinlərdən ibarət olan kollektivimiz gecə-gündüz uşaqların qayğısını çəkməkdə, öz işlərini vicdanla yerinə yetirməyə çalışmaqdadırlar. Bunun əksi də ola bilməz. Əks halda həmin insanları işdən qovulma, cəzalandırma gözləyir və necə ki, fəaliyyət göstərdiyim bu qısa dövr ərzində də bəzi işçilərə qarşı bu cür tədbirlər görülüb".



Mətbuat günündə 33 yaşını qeyd edən F. Muradov isə doğum gününü, eləcə də, mətbuat bayramını fiziki qüsurlu uşaqlarla birgə keçirməkdən şad olduğunu deyib:

"Xüsusi qayğıya ehtiyac duyan əqli cəhətdən qüsurlu uşaqları bütün ictimaiyyətin diqqət mərkəzində olmalıdır. Bu baxımdan jurnalistlərlə, onların bayramını burada keçiririk. Bu ağrılı problem hər birimizi narahat etməlidir. Hər kəs əlindən gələcək qədər bu uşaqlara qayğı göstərməlidir". Daha sonra çıxış edən Parlament Jurnalistləri Birliyinin sədri Elşad Eyvazlı Həsən bəy Zərdabinin gənclərə göstərdiyi qayğıdan danışıb: "Zərdabi təkcə mətbuatla bağlı deyildi. O gənclərə, onların maariflənməsinə daha çox diqqət yetirirdi. Zərdabidən başlayan bu günümüz gənclərə həsr olunmalıdır. Biz mətbuat gününü əqli qüsurlu uşaqlarla keçirdiyimiz üçün çox sevinirik. Biz bu günümüzü gənclərə həsr etməliyik. Buradakı uşaqların daha çox qayğıya ehtiyacı var. Biz Həsən bəy Zərdabidən gələn ənənəni davam etdirməliyik. Hər zaman onların yanında olmaq və onlara lazımi yardım göstərmək hər media orqanının əsas prinsipi olmalıdır. Bizim jurnalist olaraq borcumuzdur ki, bayramımızı sizinlə qeyd edək".

E.Eyvazlı mətbuat günü münasibəti ilə jurnalistləri təbrik edərək, tədbirə qatılan parlament jurnalistlərinə hədiyyələr verib. Millət vəkili F. Muradov da öz növbəsində jurnalistlərə dəyərli hədiyyələr verərək onları təbrik edib. Millət vəkili daha sonra uşaqlara da hədiyyələr paylayıb.

**Kamil HƏMZƏOĞLU**

# "Növbəti tədris ilində Azərbaycanın təhsil sistemində ciddi yeniliklər gözlənilir"

Təhsil Nazirliyi tərəfindən hər il məktəblərdə informasiya-kommunikasiya texnologiyalarından necə istifadə olunması ilə bağlı monitorinq keçirilir. Nazir Misir Mərdanov məlumat verib. M.Mərdanov deyib ki, keçirilən monitorinqin nəticələri məktəb direktorlarının iştirakı ilə müzakirə edilir, hər hansı bir neqativ hallar aşkarlanarsa, lazımi tapşırıqlar verilir. Nazirin sözlərinə görə, ildən-ilə bu tip məsələlərin sayı azalmaqdadır: "Təhsil sistemində İKT avadanlıqlarından istifadə edilməsi və tədrisin müasir standartlara uyğun səviyyədə keçirilməsi üçün müvafiq işlər görülür. İnternetdən istifadə edən müəllimlərin, şagirdlərin və məktəblərin sayı isə ildən-ilə artmaqdadır. Məktəblərdə şagird-kompyuter nisbətinin 1:1-ə endirilməsi nəzərdə tutulur. Bu istiqamətdə də Təhsil Nazirliyi tərəfindən lazımi tədbirlər həyata keçirilir". Təhsil naziri əlavə edib ki, növbəti tədris ilində Azərbaycanın təhsil sistemində çox ciddi yeniliklər gözlənilir. İlk nöbvədə, Azərbaycan uşaqları, şagirdləri, müəllimləri yeni və əsaslı təmir olunmuş bağça və məktəblərə gedəcəklər: "Bununla yanaşı, təhsildə bir çox innovativ tədbirlər də nəzərdə tutulub".



**S.QARAYEVA**

# Gənc Alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası olacaq

Azərbaycanda Gənc Alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası adlı layihə keçiriləcək. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədovanın sözlərinə görə, 25-30 iyul tarixlərində keçiriləcək layihəni Gənclər və İdman Nazirliyi və Prezident yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Gənclərin İntellektual İnkişaf Mərkəzi və Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti ilə birgə təşkil edəcək: "Məlumat üçün qeyd edim ki, layihə çərçivəsində keçiriləcək tədbirlər sırasına Gənc Alimlərin II Respublika İnnovativ İdeya Yarmarkasının açılış mərasimi, "Yeni çağırışlar: Müasir şəraitdə elmi innovativ tədqiqat işlərinin təcrübi və tətbiqi əsasları" adlı konfrans, gənc alimlər arasında Elmi İnnovativ İdeyalar Müsabiqəsi daxildir". S.Məmmədova bildirib ki, iyulun 25-27-də keçiriləcək "Yeni çağırışlar: Müasir şəraitdə elmi innovativ tədqiqat işlərinin təcrübi və tətbiqi əsasları" adlı konfransda AMEA-nın elmi tədqiqat institutlarında çalışan gənc alimlər, digər universitetlərdə və elmi müəssisələrdə fəaliyyət göstərən ümumilikdə, 120 gənc tədqiqatçı iştirak edəcək: "Elmi İnnovativ İdeyalar Müsabiqəsində gənc alim və tədqiqatçılar öz təqdimatları ilə çıxış etdikdən sonra AMEA-nın həqiqi və müxbir üzvlərindən təşkil olunan münsiflər heyəti onların çıxışlarını qiymətləndirəcəklər. Müsabiqədə 1,2 və 3-cü yerləri tutan gənc tədqiqatçılara qiymətli hədiyyələr təqdim olunacaq".

**S.QARAYEVA**

# Mərkəzi Bankda "Açıq qapı" günü keçirilib

Azərbaycan milli mətbuatının yaranmasının 137 illiyi münasibəti ilə Mərkəzi Bankda jurnalistlər üçün "Açıq qapı" günü keçirilib.

Tədbiri açıq elan edən Mərkəzi Bankın sədr müavini Xaqani Abdullayev KİV nümayəndələrini peşə bayramları münasibəti ilə təbrik edərək öildirib ki, Mərkəzi Bank KİV nümayəndələri ilə intensiv əməkdaşlıq edir. Onun sözlərinə görə, "Açıq qapı" günü tədbiri jurnalistlərə Mərkəzi Bankın struktur bölmələrinin fəaliyyəti ilə daha yaxından tanış olmaq imkanı verir. X.Abdullayev Mərkəzi Bankın "2011-2014-cü illər üçün Strateji Planı" barədə qısa məlumat verərək bildirib ki, plan Bankın bütün fəaliyyət sahələrini əhatə edir və hazırda bu planın icrası aktiv mərhələdədir.

Daha sonra isə jurnalistlər Mərkəzi Bankın Nağd Pul, Pul siyasəti, Kredit təşkilatlarının fəaliyyətinə nəzarət, İnsan resursları, Ödəniş sistemləri və hesablaşmalar departamentlərinin fəaliyyəti ilə tanış olublar. KİV nümayəndələri ilə görüşən hər bir departament direktoru onlara rəhbərlik etdikləri struktur bölmənin fəaliyyəti barədə ətraflı məlumat verərək jurnalistlərin suallarını cavablandırıblar.

Jurnalistlər həmçinin Mərkəzi Bankın Tədqiqatlar və İnkişaf Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olublar.

Tədbirin sonunda Kommunikasiya departamentinin direktoru Rüfət Abbasov Mərkəzi Bankın kommunikasiya siyasəti barədə danışıb. Ümumi müzakirələrdən sonra jurnalistlərə hədiyyələr təqdim edilib.

**BƏXTİYAR**

# Yalçın Əfəndiyevin 75 yaşı tamam olur

2012-ci il iyulun 24-də tanınmış kinorejissor və pedaqoq, Azərbaycanın Xalq artisti Yalçın Əfəndiyevin 75 yaşı tamam olur. Ömrünün 50 ildən çox hissəsini kinoya həsr edən istedadlı sənətkarın kino yaradıcılığı milli kinematoqrafın parlaq səhifələrindən birini təşkil edir. Milli kinomuzu, tarixin çətin dövründə Yalçın Əfəndiyev, mənliyini və simasını qoruyaraq, öz yaradıcılığında ardıcıllığı və özünəməxsusluğunu saxlaya bilmişdir.



Yalçın Heydər oğlu Əfəndiyev 1937-ci il iyulun 24-də Bakıda ziyalı ailəsində anadan olub. 1960-cı ildə ADU-nu bitirdikdən sonra öz təhsilini Moskvanın Kinematoqrafiya İnstitutunda davam etmiş və 1966-cı ildə oranı bitirərək "Azərbaycanfilm" kinostudiyasında fəaliyyətə başlamışdır. Yalçın Əfəndiyevin yaratdığı filmlər, ölkəmizin tarixini, mədəniyyətini əks etdirən, insan münasibətlərinin mürəkkəb çalarlarını özünəməxsus dərin psixoloji üsullarla göstərən bir sənətçidir. Onun çəkdiyi "Odla təmasda", "Naxışların yaddaşı", "Xatirələr sahili", "Dostluğun təntənəsi, "Ovçu, vurma məni", "Sənin həyat mövqeyin", "Azərbaycan İncəsənəti", "Hikmətli miniatürlər", "Ağrılı yaddaş", "İrsimizin sorağında" sənədli və bədii filmlər bu gün də tamaşaçı tərəfindən rəğbətlə qarşılanaraq maraqla baxılır.

Yalçın Əfəndiyev, çəkdiyi filmlərdə həmişə peşəkarlıqla seçilən, həmkarlarına və dostlarına qayğı ilə yanaşan və heç kimdən öz köməyini əsirgəməyən bir sənətkar kimi sevilir və həmkarları onun simasında əsl ziyalılığı əks etdirən insanı görürlər.

Azərbaycanın Xalq artisti fəxri adına layiq görülmüş Yalçın Əfəndiyev Azərbaycan Professional Kinorejissorlar Gildiyasının yaradıcılarından və ən fəal təşkilatçılarındandır. O, Kinorejissorlar Gildiyası Bürosunun üzvü olaraq bir çox layihələrin reallaşmasında iştirak etmiş, Beynəlxalq Audiovizual festivalın münsiflər heyətinin sədri olaraq gənclərin yaratdığı əsərlərə obyektiv qiymət verilməsində prinsipiallıq və ardıcıllıq göstərmişdir.

Mədəniyyət və İncəsənət Universitetinin kino kafedrasının professoru olaraq Yalçın Əfəndiyev öz bilik və təcrübəsini cavanlara ötürməyi, gənclərin kinoda, onun mürəkkəb və ağır kinoistehsalatı prosesində ilk addımında yardımçı olmağı özünə borc bilir.

Hörmətli və əziz həmkarımızı 75 illik yubiley münasibəti ilə ürəkdən təbrik edir, ən əsası can sağlığı, uzun ömür, həyatda və sənətdə isə yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Professional Kinorejissorlar Gildiyasının Bürosu**

# Azərbaycanda fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 2 mln. nəfəri ötüb

Cari ilin birinci yarısında dövlət sosial sığorta sistemində fərdi uçotun inkişafı və tətbiqi məqsədilə davam etdirilən tədbirlər nəticəsində, sistemdə fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 2 mln. nəfəri ötüb. Dövlət Sosial Müdafiə Fondunun (DSMF) ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, belə ki, bu ilin 6 ayı ərzində DSMF tərəfindən əlavə olaraq 80 889 vətəndaşa sosial sığorta nömrəsi verilib və onlar üçün fərdi hesab açılıb. İyulun 1-nə olan statistikaya əsasən, Azərbaycanda fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 2 047 743 nəfərə catıb. Sığortaolunanların 56,2 faizi kişi, 43,8 faizi isə qadındır.

Fərdi şəxsi hesabı olanlar arasında 40-50 yaş aralığında sığortaolunanlar üstünlük təşkil edir. Göstərilən yaş kateqoriyalarına aid olan vətəndaşlar ümumi sığortaolunanların 23,8 faizini əhatə edir. Bundan başqa, fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 21 faizini 30 yaşa kimi vətəndaşlar, 23,1 faizini 30-40 yaş aralığında olan vətəndaşlar, 21,7 faizini 50-60 yaş aralığında olan vətəndaşlar, 10,4 faizini 60 yaşdan yuxarı olan vətəndaşlar təşkil edir.

Fərdi uçot — Azərbaycan Respublikası qanunvericiliyinə uyğun əmək pensiyalarının və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılmasıdır. 2006-cı il 01 yanvar tarixdən tətbiq olunan "Əmək pensiyaları haqqında" Qanununa əsasən, əmək pensiyaları fərdi hesaba toplanan pensiya kapitalına əsasən hesablanır.

**BƏXTİYAR**

# Ölkə qanunvericiliyinin tələblərini pozmuş 103 əcnəbi saxlanılıb

Azərbaycan Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən həyata keçirilən tədbirlər ötən həftə ərzində də davam etdirilib. Xidmətdən verilən məlumata görə, iyulun 16-21-də DMX tərəfindən Bakı və Gəncə şəhərlərində, həmçinin Bərdə, Ağcabədi, Yevlax, Şəki, Göygöl, Tovuz, Qazax, Xaçmaz və Şabran rayonlarında qanunsuz miqrasiyaya qarşı keçirilən müvafiq tədbirlər nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə zidd olaraq fərdi icazə almadan əmək fəaliyyətinə cəlb edilmiş, eyni zamanda ölkədə olma və yaşama qaydalarını pozmuş 103 əcnəbi aşkar edilib. Saxlanılan şəxslər barəsində Azərbaycan Respublikasının inzibati qanunvericiliyinin tələblərinə uyğun olaraq müvafiq qərarlar qəbul olunub.

**BƏXTİYAR**

**Britaniyalı parlamentar Kristofer Pinçer:**

# "Dağlıq Qarabağ müstəqil ərazi vahidi kimi mövcud deyil, ona görə də hər hansı şəffaf və həqiqi seçki keçirə bilməz"

*(Əvvəli 1-ci səh.)*



Münaqişə nəticəsində başqa yerə köçürülmüş insanlar öz evlərinə qayıtmalı və buna imkan yaradılmalıdır. Ermənistan tərəfindən işğal edilən ərazilər isə azad olunmalıdır.

***— Siz Dağlıq Qarabağ münaqişəsinə toxundunuz. İyulun 19-da həmin ərazidə keçirilən "seçki"yə münasibətiniz necədir?***

— Dağlıq Qarabağ müstəqil ərazi vahidi kimi mövcud deyil. Ona görə də hər hansı şəffaf və həqiqi seçki keçirə bilməz. Əgər orada yaşayan insanlar zorla başqa yerə köçürülübsə bu, əsl seçki sayıla bilməz.

***— Son vaxtlar Avropa Birliyi Dağlıq Qarabağ münaqişəsinin həllində və tərəflər arasında etimadın qurulması prosesində daha fəal rol oynamaq arzusunu dəfələrlə bildirib. Böyük Britaniya bu prosesə necə dəstək ola bilər?***

— Böyük Britaniya ATƏT-in Minsk Qrupunun fəaliyyətini dəstəkləyir. Lakin Britaniya parlamenti və hökuməti bütün beynəlxalq təşkilatlara və Ermənistana münaqişə nəticəsində evlərindən köçürülmüş insanların hüquqlarını dəstəklədiyini çatdıra bilər.

***— Britaniyanın adi vətəndaşları bu münaqişədən nə qədər məlumatlıdır?***

— Son vaxtlar TEAS-ın fəaliyyəti nəticəsində məlumatlılıq artır. Lakin qeyd etməliyəm ki, güclü diasporaya malik olan Ermənistan bütün dünyada öz mövqeyini çatdırmaq üçün iş aparır. Azərbaycan da Dağlıq Qarabağ münaqişəsinə dair öz mövqeyini və öz hüquqlarını fəal şəkildə təbliğ etməlidir. Çünki Britaniya ictimaiyyəti bu məsələ ilə bağlı hələ də dumanlı təsəvvürə malikdir.

***— Azərbaycanla Britaniya arasında parlamentlərarası əlaqələrin səviyyəsini necə qiymətləndirirsiniz?***

— Bildiyiniz kimi, parlamentlər arasında dostluq qrupu mövcuddur. Azərbaycana gəlib-getdiyimiz son 3-4 ildə azərbaycanlı parlamentarlar tərəfindən həmişə çox isti qarşılanırıq. Biz ümid edirik ki, Milli Məclisdən olan həmkarlarımız da yaxın 1 il müddətində Londona səfər edəcəklər və biz görüşərək bundan sonrakı əməkdaşlığı müzakirə edəcəyik. Britaniyalı parlamentarlar TEAS tərəfindən təşkil olunan debatlara da qatılırlar.

Britaniyada başqa ölkələrin şəhərləri ilə qardaşlaşan və münasibət quran şəhərlər sar. Bu ənənə xüsusən təhsil sahəsində çox yaxşı imkanlar açır, çünki məktəblilərin qarşılıqlı səfərləri təşkil olunur. Qəbələyə səfərimin nəticələri əsasında mən Qəbələ ilə doğma şəhərim Temvortun (Tamworth) qardaşlaşması təklifini irəli sürmək istəyirəm. Qərarı əlbəttə ki, mən yox, şəhər meri və yerli şura verəcək.

***— Enerji sahəsi iki ölkə arasında əsas əməkdaşlıq sahələrindən biridir. Siz Azərbaycanla Britaniya arasında digər sahələrdə əməkdaşlığın perspektivlərini necə görürsünüz?***

— Enerji məsələsi Britaniya üçün çox vacibdir. Əmin olmaq zəruridir ki, biz etibarlı enerji təchizatına sahibik və onu diversifikasiya etmişik. Bu məsələ Rusiyadan enerji asılılığı olan Şərqi Avropa ölkələri üçün daha önəmlidir və onlar enerji təchizatını diversifikasiya etməlidir. Biz Azərbaycanın Avropaya qaz nəql edən boru kəmərlərinin sayının artırılması yönündə siyasətini dəstəkləyirik. Biz Azərbaycanda çox maraqlıyıq. BP-nin Azərbaycanda 5 mindən çox işçisi var. Ölkələrimiz arasında enerji sahəsində çox yaxşı əməkdaşlıq qurulub. Lakin hesab edirəm ki, Azərbaycan üçün başqa sahələri də inkişaf etdirmək vacibdir. Britaniya Azərbaycana bu sahələrdə dəstək verməyə hazırdır.

# "Müharibə başlasa, Rusiya sözsüz ki, Ermənistanı müdafiə edəcək"

*(Əvvəli 1-ci səh.)*



— Prinsipcə, Rusiya Qəbələ RLS-siz də keçinə bilər. Bildiyiniz kimi, Armavirdə Qəbələ RLS-dən daha güclü, daha müasir texnika ilə təchiz olunmuş RLS fəaliyyət göstərir. Lakin o da məlumdur ki, hər bir texnika müəyyən müddətdə proflaktika keçirməlidir. Bu zaman həmin texnika müvəqqəti fəaliyyətini dayandırmalı olur. O zaman isə onun görəcəyi işi görə bilən başqa texnika işə düşməlidir. Armavirdəki RLS-də profilaktika yaranan zaman mütləq Qəbələ RLS onun gördüyü işi yerinə yetirməlidir. Eləcə də, Qəbələ RLS-də proflaktika yaranan zaman Armavirdəki RLS onu kompensasiya edir. Bu səbəbdən Qəbələ RLS Rusiya üçün vacibdir.

***— Keçən ayın əvvəllərində Azərbaycan və Ermənistan qoşunlarının cəbhə xəttində gərginlik yaşanmışdı və bu gərginlik hələ də davam edir. Qafqazda yeni müharibənin başlaması ehtimalı nə qədərdir?***

— Müharibənin başlanma ehtimalı çox azdır. Birincisi, müharibə tərəflərdən heç birinə sərf eləmir. Söhbət burada kimin udub-uduzmasından getmir. Daha güclü iqtisadiyyatı olan Azərbaycanın müharibə zamanı itirəcəkləri çox olacaq. Ermənistanla cəbhə bölgəsinə yaxın ərazidə Azərbaycanın Mingəçevir Su Elektrik Stansiyası yerləşir. Müharibə zamanı onun təhlükəsizliyinə kim zəmanət verə bilər?! Su anbarının zərər görməsi Azərbaycan üçün böyük fəlakət olacaq. Hesab edirəm ki, tərəflər müharibə yolunu seçməyəcəklər. Siyasilər bir çıxış yolunu tapacaqlar. Təbii ki, status-kvonun mövcudluğu Ermənistana sərf edir. Cəbhə bölgəsində isə gərginliyin müntəzəm olaraq artması regionda problemin mövcudluğuna bir işarədir. Yəni tərəflər vəziyyəti daim gərgin saxlayırlar ki, dünya güclərinə regionda problemin hələ də həll olunmadığını göstərsinlər və konfliktinin həllini onların gündəmində saxlasınlar. Cəbhə xəttində gərginliyi artırmaq tərəflər üçün Dağlıq Qarabağ konfliktinin mövcudluğunu və bu konfliktin hələ də həll olunmamasını göstərən bir vasitədir.

***— Azərbaycanla Ermənistan arasında müharibə başlayacağı təqdirdə Rusiya özünü necə aparacaq?***

— Sözsüz ki, Azərbaycan müharibəyə başlayacağı zaman Rusiya Ermənistanı müdafiə edəcək. Çünki Ermənistan həm Rusiya ilə hərbi sahədə yüksək səviyyədə əməkdaşlıq edir, həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür.

# Nuşirəvan Məhərrəmli: "...Milli seriallarımız bədii səviyyə baxımından aşağı səviyyədədir"

"Milli seriallar məsələsi son zamanlar ən çox müzakirə olunan məsələlərdən biridir. Hesab edirəm ki, MTRŞ-nın bu barədə verdiyi qərar ən düzgün qərarlardan biridir".Bu fikirləri Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri Nuşirəvan Məhərrəmli dilə gətirib.Onun dediyinə görə, Azərbaycan artıq dünyada inkişaf etmiş, nüfuzlu ölkədir və biz iqtisadi, siyasi cəhətdən hər hansı ölkədən asılı deyilik. N. Məhərrəmli bu baxımdan belə hesab edir ki, ideoloji asılılığı da aradan qaldırmalıyıq: "İndiyə qədər bizim efirimiz xaricdən asılı vəziyyətdə qalmışdı. Seriallar əvvəlcə Latın Amerikası ölkələrindən gəlirdi, sonra da Rusiyadan, Hindistandan, Türkiyədən. Belə olan halda biz düşünməyə başladıq və qərara gəldik ki, bu vəziyyəti düzəltmək olar. Azərbaycanda bu sahəni inkişaf etdirmək üçün müəyyən bazar yaratmaq lazım idi. Ona görə də, yerli istehsalı inkişaf etdirmək üçün dövlət dəstəyinə ehtiyac yarandı.

Hesab edirik ki, bu addımlarla bu sahəni müəyyən qədər canlandıra biləcəyik. Burada böyük aktyorlar dəstəsini, ssenari müəlliflərini, prodüsserləri və digər insanları işlə təmin edə biləcəyik. Bundan başqa, biz Azərbaycanın özünün yaratdığı əsərləri ekranlaşdıracağıq. Əgər xarici seriallara baxacağıqsa, bizim ədiblərimizin əsərlərini kim ekranlaşdıırıb gələcək nəsillərə çatdıracaq? Bundan başqa, ən əsası yetişməkdə olan gənc nəslimiz hansı ruhda tərbiyə alacaq? Əgər gənclərimiz xarici ölkələrdən gələn seriallarla tərbiyə olunacaqsa, o xalqların xarakterinə uyğun tərbiyələnəcəklər. Bəs onda azərbaycançılığı nə ilə göstərə biləcəyik? Ona görə də, xarici seriallardan imtina və milli serialların yayımı vacib məsələdir". MTRŞ sədri həmçinin deyib ki, bəzən hazırda çəkilən serialların keyfiyyətinin aşağı olması fikri ilə də tez-tez rastlaşırıq: "Mən də razıyam ki, seriallarımız bədii səviyyə baxımından aşağı səviyyədədir, müəyyən qədər bayağılıq var. Bəzən ssenaristlər lazım olan ssenarini düzgün qura bilmirlər. Amma buna baxmayaraq hesab edirəm ki, biz bu yolun başlanğıcındayıq. Biz qorxmamalıyıq, bu yola çıxmışıqsa davam etməliyik. Bu yolda müəyyən problemlərimiz olacaq, amma onları həll etmək üçün yetərincə potensialımız var.

Bu yöndə dövlət dəstəyi də ortadadır. Bildiyiniz kimi cənab prezident bu məqsədlə 5 milyon manat vəsait ayırıb və özəl telekanalların hər birinə 800 min manat verildi. Bu, böyük bir məbləğdir və hesab edirəm ki, biz qısa müddətdə bunun nəticələrini görəcəyik. Çünki efirdə rəqabət mühiti yaranacaq. Hansı telekanalda ki, daha yüksək reytinqli seriallar gedəcəksə, digərləri ondan yaxşı serial çəkməyə çalışacaq. Beləliklə, bu sahədə yarışma baş verəcək və keyfiyyətli seriallar yaranacaq. Baxın, Türkiyədə, Rusiyada 10 il bundan əvvəlki seriallarla indikilərdə nə qədər böyük fərq var. Biz də çalışacağıq ki, bu sahədə Azərbaycanın əhalisinə, ərazisinə uyğun bir potensialı ortaya qoyaq. Hesab edirəm ki, bizim seriallarla bağlı qərarımız doğrudur və əhalinin böyük əksəriyyəti dəstəkləyir. Bu sahədə ildən-ilə uğurlarımız daha da çox olacaq".

**KAMİL**

**Mübariz Qurbanlı:**

# "Bu gün dünya mübarizə dünyasıdır"



"Ermənistan-Azərbaycan münaqişəsi, onun səbəbləri hamıya bəllidir.Bizim iqtisadi gücümüz nəticə etibarı ilə Dağlıq Qarabağ münaqişəsinin həllində imkanlarımızı artırır". Bu fikirləri mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili Mübariz Qurbanlı dilə gətirib. Millət vəkilinin dediyinə görə, o heç də Ermənistanla müqayisələr aparmaq, bunun üzərində dayanmaq istəmir, çünki reallıq hər kəsə aydındır: "Yalnız onu qeyd etmək kifayətdir ki, bu gün Azərbaycan iqtisadi gücünə görə Ermənistandan 10 dəfə güclü dövlətdir. Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrinin genişlənməsi, beynəlxalq nüfuzunun artması, beynəlxalq maliyyə qurumlarının Azərbaycanın iqtisadi baxımdan reytinqini ildən-ilə artırması əlbəttə ki, erməni lobbisini və Ermənistanı çox narahat edir. Bu prosesin Dağlıq Qarabağ münaqişəsinə təsiri məsələsinə gəldikdə isə ikitərəfli və çoxtərəfli danışıqlarda, qəbul olunmuş sənədlərdə Ermənistanın təcavüzkarlığı daha çox dövlət tərəfindən etiraf olunur. Digər tərəfdən, Azərbaycanın iqtisadi qüdrətinin artması Ermənistanı iqtisadi cəhətdən taqətdən salmaq istiqamətindəki vəzifənin yerinə yetirilməsində böyük təsir göstərir. Düşmənlə üz-üzə dayanmaq, döyüşmək yalnız hərbi cəbhədə deyil, başqa cəbhələrdə də özünü göstərir. Hər hansı bir düşmən ölkə ilə mübarizə mədəniyyətdə, mənəviyyatda, iqtisadiyyatda, həmçinin şüurda və ümumilikdə, bütün sahələrdə də özünü göstərir". M.Qurbanlı həmçinin deyib ki, xarici siyasətdə əldə edilən uğurlar, yeni dostların qazanılması, xarici dövlətlərin ictimai rəyinə təsir imkanlarının artması, təbii ki, bütün bunlar Azərbaycanın xeyrinədir: "Azərbaycan hər sahədə Ermənistanı üstələyib. "Eurovision 2012" mahnı yarışmasının Bakı şəhərində möhtəşəm keçirilməsi, ölkəmizin dünyada mədəniyyət mərkəzi kimi tanıdılması və beynəlxalq mədəniyyət mərkəzlərinin diqqətinin Azərbaycana yönəldilməsi, Azərbaycanın artan potensialı və ölkəmizin bu gün iqtisadi baxımdan kapital idxal edən ölkədən kapital ixrac edən, yəni sərmayələr yatıran ölkəyə çevrilməsi ciddi amillərdir.

Bu gün Azərbaycan xüsusilə Türkiyədə, Balkan ölkələrində və başqa yerlərdə yüksək sərmayələr yatırır. Xüsusilə ARDNŞ-ın bu istiqamətdə fəaliyyəti o qədər genişlənib ki, onun başqa ölkələrin iqtisadiyyatında xeyli güclənib. Azərbaycan geniş şəkildə ölkələrə sərmayələr yatırır, həmçinin humanitar xarakterli addımlar atır". Millət vəkilinin bildirdiyinə görə, o cümlədən, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın xarici ölkələrdə humanitar xarakterli proqramlar həyata keçirməsi Azərbaycanın dostlarının artmasına gətirib çıxarır:

"Bu gün dünya mübarizə meydanıdır. Mübarizə meydanında kimin daha çox dostları varsa onun uduş imkanları daha böyükdür. Bu gün Azərbaycan istənilən təşkilatda söz sahibinə çevrilib, orada Azərbaycanın maraqlarına uyğun qərarların qəbul edilməsinə nail olunur. Eləcə də, Bakı şəhəri beynəlxalq tədbirlərin ev sahibinə çevrilir. Bildiyiniz kimi ATƏT-in Parlament Assambleyasının illik yay sessiyasının 2014-cü ildə Azərbaycanda keçirilməsi qərara alınıb. Bütün bunlar Azərbaycanın dostlarının sayının artmasına xidmət edir və bu amillər Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərir. Bu gün münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlarla həll edilməsi istiqamətində diplomatik axtarışlarımız davam etməkdədir. Biz danışıqlar masasını tərk etmək niyyətində deyilik. Amma bu münaqişənin indiyə qədər həll edilməməsinin başlıca səbəbi böyük güclərin geopolitik baxımdan uzlaşa bilməməsidir, böyük güc mərkəzlərinin bu bölgədə biri-biriləri ilə üz-üzə dayanmasıdır. Ona görə də, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycan bütün gücünü, potensialını, fəaliyyətini səfərbər edib". Amma millət vəkilinin fikrincə, bu münaqişənin həlli ilə əlaqədar bizdən asılı olmayan bəzi problemlər var ki, onlar zamana bağlıdır:

" Burada da, Azərbaycanın yenə də genişmiqyaslı fəaliyyəti-bir tərəfdən Ermənistanın təcavüzkarlığının dünyaya çatdırılmasında daha geniş uğurlar əldə etməyə gətirib çıxarıb, digər tərəfdən Ermənistanı daha çox dalana dirəyən bir siyasət həyata keçirilib. Ermənistan çıxmaza daxil olmaqdadır və bu da özünü göstərir. Ermənistan bu gün daha çox üçüncü ölkənin təsir dairəsində qalan asılı, vassal bir dövlət kimi tanınmaqdadır. Odur ki, bir dövlət olaraq Ermənistanın və onun başçısının hər hansı nüfuzu yoxdur. Bu ölkə yalnız erməni lobbisinin və bəzi dövlətlərin ianələri hesabına fəaliyyət göstərir".

**KAMİL**

# Litvanın baş naziri Litva Azərbaycanlıları Cəmiyyətinin fəaliyyətini yüksək dəyərləndirib

Vilnüsdə Litvanın baş naziri Andryus Kubilyusun sədrliyi ilə Litva Milli Azlıq Məsələləri üzrə Koordinasiya Komissiyasının iclası keçirilib. Toplantıda Litvanın yeddi nazirliyinin rəhbərləri və Litva milli icmalarının sədrləri iştirak ediblər. Sözügedən hökumət komissiyasının üzvü, Litva Azərbaycanlıları Cəmiyyətinin sədri və Litva Milli İcmalar Şurasının başçısı Mahir Həmzəyevin təşəbbüsü ilə iclas bu dəfə Litva paytaxtındakı Milli İcmalar Evində baş tutub. İclasdan sonra baş nazir A. Kubilyus başda olmaqla Litva Respublikası Nazirlər Kabinetinin üzvləri Litva azərbaycanlıları cəmiyyətinin Milli İcmalar Evində yerləşən ofisində olaraq diaspor təşkilatımızın fəaliyyəti ilə yaxından maraqlanıblar. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib. Baş nazir və qonaqlar cəmiyyətin iclas zalında XIX-XX əsrlərdə Litva-Azərbaycan mədəni əlaqələri və 1918-1922-ci illərdə Litva-Azərbaycan dövlətlərarası münasibətləri mövzusunda təşkil edilmiş sərgi ilə tanış olublar. Cəmiyyətin sədri M. Həmzəyev Nazirlər Kabinetinin üzvlərinə Litva-Azərbaycan dövlətlərarası münasibətlərinin kökləri, xalqlarımız arasındakı mədəniyyətlərarası dialoqun tarixi, çağdaş durumu və perspektivləri barədə bilgilər verərək Azərbaycan dövlətinin müasir inkişafı və Baltikyanı ölkələrlə əlaqələri haqqında qonaqları məlumatlandırıb. Litvanın Mədəniyyət naziri Arunas Gelunas, Təhsil və Elm naziri Gintaras Steponaviçyus, Xarici işlər naziri Audronyus Ajubalis, Əmək və Sosial Müdafiə naziri Donatas Jankauskas, Daxili İşlər naziri Arturas Melyanas, Maliyyə nazirinin müavini Edmundas Jilyaviçyus və Ədliyyə nazirliyinin Kansleri Arunas Kazlauskas aldıqları bilgi və təəssüratlardan məmnun olduqlarını bildiriblər. Baş nazir A. Kubilyus tədbirdə 1988-ci ildə Litva Milli Dirçəliş hərəkatı — Sayudisin hələ ilk təşəkkül tapması dövründə yaradılmış Litva azərbaycanlıları cəmiyyəti, digər milli icmalarla bərabər Litvanın Dövlət müstəqilliyinin bərpa olunması prosesində fəal iştirak etmiş və ölkənin demokratik Avropa dövlətləri ailəsinə qayıtması üçün mühüm xidmətlər göstərib: "Cəmiyyətinin təmsilçiləri Litvanın milli azlıqlarının etnik özgünlüyünün qorunub saxlanılması və ahəngdar etnoslararası münasibətlərin yaradılması, çoxmədəniyyətli, tolerantlı və yetkin Litva vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi sahəsində dövlət siyasətinin həyata keçirilməsində bu gün də əməli surətdə iştirak edir və milli icmalarla hökumət institusiyaları arasında səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə dəyərli töhfələr verirlər". Sonra baş nazir A. Kubilyus diaspor təşkilatımızın fəallarının 1988-1992-ci illərdə Sayudis təşkilatının xətti ilə Litva xalqının azadlıq hərəkatında və taleyüklü tədbirlərdə əzmlə iştirak etdikləri üçün, Litva dövlətinin etnik siyasətinin həyata keçirilməsi sahəsində verdikləri mühüm töhfələrə və Litva-Azərbaycan ictimai-mədəni əlaqələrinin inkişaf etdirilməsi sahəsində göstərdiyi uğurlu fəaliyyətə görə Litva azərbaycanlıları cəmiyyətinin sədri M. Həmzəyevə Litva Hökumətinin fəxri fərmanını və xüsusi hədiyyəsini təqdim edib. Baş nazir Azərbaycan diasporunun nümayəndələri Litva-Azərbaycan münasibətlərini daha da genişləndirmək və xalqlarımız arasında qarşılıqlı anlaşma ənənələrini zənginləşdirmək üçün bundan sonra da qüvvə və bacarıqlarını əsirgəməyəcəyinə, Şərq-Qərb mədəniyyətlərarası dialoquna yaxından qatılaraq ümumavropa dəyərlərinin yaradılması işində daha fəal iştirak edəcəklərinə inandığını bildirib.

**S.MÜRVƏTQIZI**

# Vergilər Nazirliyi əmək münasibətlərinə vergi nəzarətinin təşkili sahəsində kompleks tədbirlərə başlayıb

İyulun 23-də Vergilər Nazirliyində əmək münasibətlərinə vergi nəzarətinin təşkili sahəsində kompleks tədbirlərin başlanması ilə əlaqədar vergi ödəyiciləri ilə görüş keçirilib. Görüşdə işəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində Vergilər Nazirliyində yaradılan Qərargahın üzvləri və 250-dək iri vergi ödəyicilərinin nümayəndələri iştirak ediblər.

Vergilər nazirinin birinci müavini, qərargahın rəhbəri Natiq Əmirov çıxış edərək bildirib ki, ölkədə inkişaf templərinin artması, yerlərdə sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, yerli istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin qurulması, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması istiqamətində uğurlu nəticələr qazanılıb.

Lakin ölkədəki iqtisadi artım və əhalinin gəlirlərinin yüksəlməsinə baxmayaraq, bəzi sahibkarlar vergi orqanlarına təqdim etdikləri muzdlu işlə əlaqədar əmək haqqından tutulan gəlir vergisi hesabatlarında real vəziyyətə uyğun göstəriciləri əks etdirmir. Bir sıra vergi ödəyiciləri, işəgötürənlər vergi və ödənişlərdən yayınmaq məqsədilə qanunvericiliyin tələblərini pozaraq işçilərlə əmək müqavilələri bağlamır, iş yerləri rəsmiləşdirilmədən onlara hər hansı işlərin görülməsini həvalə edirlər. Bundan başqa iqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışan vergi ödəyicilərinin muzdlu işlə əlaqədar təqdim etdiyi vergi bəyannamələrindəki əmək haqqı məbləğləri təsərrüfat subyektinin real potensialı, eləcə də həmin sektor üzrə fəaliyyət göstərən və əmək haqlarının düzgün müəyyən edilməsinə üstünlük verən vergi ödəyicilərinin əmək haqqı məbləği göstəriciləri ilə uzlaşmır və onlardan hətta bəzən bir neçə dəfə aşağı olur.

Eyni zamanda işçi sayı, əmlakı və dövriyyəsinin həcmi daha çox olan müəssisələrdə belə direktor, baş mühasib, menecer kimi vəzifələr üçün müəyyənləşdirilmiş əmək haqları sıravi işçilər üçün müəyyən edilən məbləğlərlə eynilik təşkil edir. Bundan başqa, bir sıra hallarda vergi öhdəliklərini və sosial sığorta ayırmalarını minimallaşdırmaq məqsədilə işəgötürənlər işçilərlə əmək müqaviləsi əvəzinə mülki-hüquqi xarakterli xidmət müqavilələri bağlayırlar.

İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi vergidən yayınma halları ilə yanaşı, muzdla çalışan işçilərin əmək hüquqlarını pozmaqla, gələcək dövlət sosial təminatından da məhrum edir.

Qeyd edilənlər əmək münasibətlərində vergi nəzarətinin daha da gücləndirilməsini zəruri edir, göstərilən halların aradan qaldırılması və gəlir vergisi üzrə vergitutma bazasının leqallaşdırılması istiqamətində vergi orqanlarının da üzərinə böyük vəzifələr düşür. Bildirilmişdir ki, mövcud problemlərin aradan qaldırılması, işçilərin hüquqlarının qorunması və əmək münasibətləri sahəsində vəziyyətə vergi nəzarətinin artırılması məqsədilə Vergilər Nazirliyində xüsusi Qərargahın yaradılmış və Nazirlik tərəfindən kompleks tədbirlər həyata keçiriləcəkdir.

Vergi ödəyicilərinin nəzərinə çatdırılmışdır ki, işəgötürənlər iş yerlərinin qeydiyyatını düzgün aparmalı, fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsini Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməli, əmək haqlarının real orta aylıq əmək haqlarına uyğun müəyyən etməlidirlər.

İş yerlərinin rəsmiləşdirilməməsi öz növbəsində işəgötürənlər üçün ciddi maliyyə sanksiyaları və inzibati cərimələr deməkdir. Ödəyicilərin nəzərinə çatdırılmışdır ki, vergi orqanı tərəfindən əmək müqaviləsi bağlamadan işləri (xidmətləri) yerinə yetirdiyi aşkar edilən hər bir şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası və yayındırılmış vergi məbləğləri bərpa edilərək digər müvafiq sanksiyalar tətbiq edilir. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə əsasən Əmək Müfəttişliyi tərəfindən "Əmək müqaviləsini (kontraktı) bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə — vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək miqdarda, hüquqi şəxslər 20000 manatdan 25000 manatadək miqdarda cərimə edilir.

Görüşdə vergi ödəyicilərini maraqlandıran suallara aydınlıq gətirilib.

# Mirmahmud Mirəlioğlu Korrupsiyaya qarşı Mübarizə İdarəsində ifadə verdi

Dünən Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin istintaq şöbəsində ifadə verib.

M.Mirəlioğlu APA-ya deyib ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin istintaq şöbəsində "Gündəm-xəbər"qəzetinin təsisçisi Şirin Cəfəri barəsində başlanan cinayət işi ilə bağlı ifadə verib: "İstintaqı əsasən "Gündəm-xəbər"qəzetilə münasibətlərimizin hansı müstəvidə olması maraqlandırıb. Suallar verilib ki, əməkdaşlıq zamanı partiya qəzetə maddi yardım edibmi və ya nağd pul veribmi? Əməkdaşlıq nəyin müqabilində olub?". M. Mirəlioğlu 50 dəqiqə ifadə verdiyini və bu zaman hər hansı bir təzyiqə məruz qalmadığını da söyləyib.

Qeyd edək ki, "Gündəm-xəbər"qəzetinin təsisçisi Şirin Cəfəri barəsində Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Srağagün isə partiya sədrinə mühüm işlər üzrə böyük müstəntiq, ədliyyə müşaviri Rəfail Süleymanovun imzası ilə çağırış vərəqəsi təqdim olunub. Çağırış vərəqəsinə əsasən Mirmahmud Mirəlioğlu 112026126 saylı cinayət işinin istintaqı ilə əlaqədar bu gün saat 15.00-da idarəyə gəlməyi xahiş olunub.

**“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə**




# Azərbaycan Milli Mətbuatının 137-ci ildönümü qeyd edildi

İyulun 22-də Milli Mətbuat Günü münasibəti ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov və bir qrup media təmsilçisi Fəxri Xiyabana gələrək öncə müstəqil mətbuatımızın inkişafında müstəsna xidmətləri olan ümummilli liderimiz Heydər Əliyevin məzarını ziyarət edib, önünə çələng qoyublar.

Sonra qəzet redaktorları, media rəhbərləri və jurnalistlər Fəxri Xiyabanda Həsən bəy Zərdabinin qəbrini ziyarət edib, böyük mütəfəkkirin ruhunu ehtiramla yad ediblər. Həsən bəy Zərdabinin məzarı başında çıxış edən Fondun icraçı direktoru Vüqar Səfərli və Mətbuat Şurasının sədri Əflatun Amaşov “Əkinçi” qəzetinin yaradıcısı və baş mühərriri Azərbaycan xalqının tanınmış simalarından olan böyük maarifpərvər, ziyalı Həsən bəy Zərdabinin həyat və fəaliyyətindən danışıblar. Onlar bildiriblər ki, “Əkinçi” qəzetinin ömrü çox uzun çəkməsə də o, Azərbaycan Milli Mətbuatının, Azərbaycan xalqının tarixində, onun maariflənməsində böyük rol oynayıb. Vüqar Səfərli bildirib ki, Azərbaycan mətbuatının keçdiyi 137 illik yol keşməkeşli, əziyyətli, lakin şərəfli olub: “Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdə ölkədə mətbuat azadlığının təmin olunması istiqamətində bir sıra addımlar atılıb. 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamı ilə ölkədə senzura tam ləğv olundu. Yəni, “Kütləvi informasiya vasitələri haqqında” qanun qəbul edilib, Mətbuat Şurası formalaşdırılıb, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Hazırda ölkədə 500-dən artıq mətbuat orqanı fəaliyyət göstərir ki, onların da 40-a yaxını gündəlik nəşrlərdir”.





Bundan sonra tədbir geniş heyətlə “1001 gecə” istirahət mərkəzində davam etdirilib. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Azərbaycan mediasının nümayəndələrini, jurnalistika sahəsində çalışan bütün mətbuat işçilərini Milli Mətbuatımızın 137-cı ildönümü münasibətilə təbrik etmiş, onlara işlərində uğurlar arzulayıb.

Əli Həsənov bildirib ki, Azərbaycanda Milli Mətbuat gününün geniş təntənə ilə qeyd edilməsi artıq xoş bir ənənəyə çevrilib: “Bu ənənənin əsası ümummilli lider Heydər Əliyevin Milli Mətbuatımızın 125 illiyinin keçirilməsi haqqında imzadaldığı müvafiq Fərmanı ilə qoyulub. O vaxtdan qeyd olunan mətbuat günlərində ölkəmizin ictimai-siyasi həyatının müxtəlif sahələrində dəyərli yazıları ilə fərqlənmiş və dövlətçilik ənənələrimizə xidmət edən media mənsubları mükafatlandırılıblar”.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri qeyd edib ki, Azərbaycan milli mətbuatı çox çətin, eyni zamanda, zəngin və şərəfli inkişaf yolu keçib: “ 1875-ci ildə maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan “Əkinçi” qəzeti iki ilə yaxın fəaliyyəti dövründə mütərəqqi fikirli ziyalıları ətrafında birləşdirib. Qəzetdə elm, maarif, mədəniyyət, incəsənət və kənd təsərrüfatının inkişafı ilə bağlı məqalələr dərc olunmuş, dini mövhumata və cəhalətə qarşı kəskin çıxışlar edilib, bu mətbu orqan vasitəsilə xalqın mədəni tərəqqisi uğrunda mübarizə aparılıb. Maarifçilik xüsusiyyətləri ilə seçilən bu qəzet milli mətbuatın müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, ədəbi dilin zənginləşməsi, hadisələrin obyektiv işıqlandırılması kimi təməl yaradıcılıq prinsiplərini təcəssüm etdirən məktəb səviyyəsinə yüksəlib”.

Mətbuat Şurasının sədri Əflatun Amaşov da çıxışında Azərbaycan mətbuatının keçdiyi şərəfli tarixi yola nəzər salıb, “Əkinçi” qəzetinin xalqımızın həyatında oynadığı rolu xüsusi qeyd edib. O deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin “Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi haqqında” 2012—ci il 4 iyun tarixli Sərəncamına uyğun olaraq Zərdab və Gəncədə də tədbirlər keçirilib və bu istiqamətdə işlər davam etdiriləcək.

Sonra Mətbuat Şurasının təsis etdiyi “Ali media mükafatı”nın təqdimetmə mərasimi olub. Mükafatın birinci dərəcəsinə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru Nəsir Əhmədli layiq görülüb. Ali Media Mükafatının müasir mətbuatın inkişafına görə olan ikinci dərəsində isə APA-nın baş direktoru Vüsalə Mahirqızı, “Ayna-Zerkalo” qəzetinin baş redaktoru Elçin Şıxlı və “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid layiq görülüblər. Mükafatın üçüncü dərəcəsi üzrə 5 media nümayəndəsi təltif olunub. Bunlar “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, “Kaspi” qəzetinin baş redaktoru Natiq Məmmədli, “Kür” qəzetinin baş redaktoru Əminə Yusifqızı olub.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli son illər ölkəmizdə medianın inkişafı naminə görülmüş işlərdən danışıb. İcraçı direktor çıxışında milli mətbuatın inkişaf taixindən və onun keçdiyi çətin və şərəfli yoldan söz açıb. Vüqar Səfərli söz azadlığının qorunması və mətbuatın inkişafının dövlətin daim diqqət mərkəzində olduğunu deyib: “Bu gün media işçilərinin bayramıdır. Bu bayram ölkənin hər yerində qeyd edilir. Bayramın qeyd olunmasının əsas səbəbkarı Həsən bəy Zərdabinin “Əkinçi” qəzetini təsis etməsidir”. Milli Mətbuata dövlət qayğısından danışan icraçı direktor “Əkinçi” qəzetinin də maliyyə çətinliyi üzündən nəşrinin dayandırıldığını xatırladıb: “Maliyyə qəzetlərə hər zaman lazımdır. Elə bu səbəbdəndir ki, ölkə başçısının sərəncamı ilə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Artıq Fond 3 ildir fəaliyyət göstərir. Bu illər ərzində Fonda dövlət büdcəsindən artan templə külli miqdarda vəsait ayrılıb. Ayrılan vəsait hesabına KİV-lərə maliyyə dəstəyi göstərilmiş, jurnalist peşəkarlığının artırılması məqsədi ilə treninq və fərdi yazı müsabiqələri keçirilmişdir”. Vüqar Səfərli qeyd edib ki, Milli Mətbuatın 137-ci ildönümü ilə əlaqədar keçirilən jurnalistlərin fərdi yazı müsabiqəsinə 10 istiqamət üzrə ümumilikdə 77 yazı təqdim olunub və yazılar Fondun 9 ekspertləri tərəfindən araşdırılaraq qiymətləndirilib: “Ayrı-ayrı istiqamətlər üzrə ən yüksək balları toplamış 30 yazının müsabiqənin qalibləri elan edilib”.

Mərasimdə jurnalistlərə KİVDF-nin mükafatları təqdim edilib. Sonda Milli Mətbuatımızın 137-ci ildönümü ilə bağlı “Bakcell” şirkətinin mükafatları da təqdim olunub. Mükafat alanlar sırasında Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, Fondun icraçı drektoru Vüqar Səfərli və Mətbuat Şurasının sədri Əflatun Amaşovda var.

Tədbir konsert proqramı ilə davam edib.

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Aqil Abbasdan "Qarabağ" rəhbərliyinə kəskin etiraz

## “KOMANDANIN AĞDAMA GETMƏMƏSİ MƏSƏLƏSİNİ MİLLİ MƏCLİSDƏ QALDIRACAĞAM”

Milli Məclisin deputatı, yazıçı Aqil Abbas “Qarabağ” komandasının Ağdamın Quzanlı qəsəbəsində oynamaq istəməməsi ilə bağlı qərarına münasibət bildirib.



Qeyd edək ki, “Qarabağ” növbəti mövsümdən ev oyunlarını Bakının Suraxanı qəsəbəsi stadionunda keçirəcəyini açıqlayıb.

İctimai Televiziyada Ağdamın işğalının 19-cu ildönümü ilə bağlı təşkil olunan verilişə qatılan Aqil Abbas “Qarabağ”ın Quzanlıda oynamaq istəməməsinə etiraz edib.

“Bu, klubun qəsdən etdiyi siyasətdir ki, “Qarabağ” cəbhə bölgəsinə getməsin. Bu komandanı işğal ediblər. “Qarabağ” komandası yol yorğunluğunu bəhanə gətirir. Necə olur ki, “Xəzər Lənkəran” ev oyunlarını Lənkəranda keçirir, səfər görüşləri üçün Tovuza, Gəncəyə gedə bilir, amma eyni şeyi “Qarabağ” Quzanlıda oynaya-oynaya etmir. Onlar Quzanlıya piyada getmirlər ki, maşınla gedirlər. Ağdam camaatının ürəyi “Qarabağ” komandası ilə döyünür. Klub da deyir ki, mən ora getmirəm” — deyə Aqil Abbas bildirib.

Millət vəkili bu problemi Milli Məclisin iclaslarından birində müzakirəyə çıxaracağını da deyib.

# “Jilina”nın rəsmisi: “Neftçi”dən çəkinmirik”

“Növbəti mərhələdəki rəqibimizi təhlil etmək asan olacaq. Lakin ilk öncə II təsnifat mərhələsində İsrail çempionu “İroni Kiryat” klubunu keçməliyik”. Bu sözləri Slovakiya mətbuatına açıqlamasında “Jilina” klubunun idman direktoru Karol Belanik bildirib.

Çempionlar Liqasının III təsnifat mərhələsində “Neftçi” — “Zestafoni” cütünün qalibi ilə qarşılaşacaq “Jilina” rəsmisi potensial rəqibləri haqda bunları deyib:

“Artıq bu dəqiqdir ki, biz növbəti mərhələdə uzun səfərə çıxacağıq. Ancaq Gürcüstanla müqayisədə Azərbaycan bizə daha tanışdır. Bu ölkənin digər klubu “Bakı” ilə 7 il öncə qarşılaşmışdıq. Ancaq həmin vaxtdan bəri çox şey dəyişib. Mövsüm öncəsi komandaya 6 yeni futbolçu cəlb etmişik. Onlar hələ öz sözünü deməyiblər. İnanıram ki, növbəti mərhələyə adlasaq, bu futbolçuların nəyə qadir olacağını görəcəyik. Düşünürəm ki, “Neftçi” ilk oyunda 3:0 hesabı ilə qələbə qazandığından Azərbaycan çempionu növbəti mərhələyə daha yaxındır. Lakin heç bir rəqibdən çəkinmirik. Sonadək mübarizə aparmaq əzmindəyik”.

Qeyd edək ki, “Jilina” klubu “İroni Kiryat”la evdə keçirdiyi ilk görüşdə 1:0 hesabı ilə qələbə qazanıb. Cavab matçı isə bu gün İsraildə keçiriləcək.

# Arda Turan: “Türk azarkeşlərin futboldan anlayışı yoxdur”

“Atletiko” (Madrid) klubunun türkiyəli yarımmüdafiəçisi Arda Turan yenidən diqqət mərkəzinə düşüb. İspaniya mətbuatına danışan Arda türkiyəli azarkeşlərlə ispaniyalı fanatlar arasında böyük fərqin olduğunu bildirib:

“İspaniyalı azarkeşlər meydandakı mübarizənin fərqindədirlər və futbolu çox yaxşı bilirlər. Buraya gələrkən yaxşı oynayacağıma söz vermişdim. Sözümə əməl etdim. Gündəmdə olmasam da, hər zaman yaxşı mübarizə apardım. Türkiyədə futbolu çox sevirlər. Ancaq türk azarkeşlərin futboldan anlayışları yoxdur. Bu baxımdan türkiyəli azarkeşlərlə ispaniyalı fanatlar arasında böyük fərq var”.

Qeyd edək ki, ötən mövsüm “Qalatasaray”dan “Atletiko”ya transfer olunan Arda yeni komandasının heyətində Avropa Liqasının qalibi olub.



# Zaza Canaşiya: “Zestafoni” ilə “Neftçi”nin iddiası müqayisəolunmazdır”



Klublarımızın bu il qitəmiqyaslı turnirlərə başlamasını səbrsizliklə gözləyirdim. Uzun illərdən sonra “Xəzər Lənkəran”ın Yunis Hüseynovla ilk turu keçəcəyinə ümid edirdim. “İnter”in sabit heyətinə və istedadlı baş məşqçisinə arxalanırdım. “Bakı”nın hər zaman önə çəkilən maddi imkanlarına, ölkə çempionu “Neftçi”nin ortaya qoyduğu iddiasına bel bağlayırdım. Hələ ki, “Bakı”dan başqa digər komandalarımız Avropa kuboklarının ilk mərhələsində mənim gümanlarımı doğruldur. “Bakı”nın məsələsi isə uzun illərdən bəri məlumdur. Klub avrokuboklar öncəsi böyük dəyişikliklərə məruz qalır, uzun müddət ərzində qurulan planlar bir gündə puç edilir.

Azərbaycan futbolunu Avropanın ən nüfuzlu qitə turnirində təmsil edən “Neftçi” ilk matçda Gürcüstan çempionu “Zestafoni”yə yerini göstərdi. Bəndəniz flaqmanın bu parlaq qələbəsinə gürcü futbolunun əfsanə simalarından biri olan Zaza Canaşiya ilə birlikdə şahidlik etdi. Hazırda Moskvanın “Lokomotiv” klubunun uşaq futbol məktəbində məşqçi postunda çalışan sabiq hücumçu matçın bitimində blits müsahibəyə razılıq verdi.

***— Zaza, oyun sizdə necə təəssürat oyatdı?***

— Əvvəlcə onu qeyd etməliyəm ki, püşkdən dərhal sonra mən həmvətənlilərimin işinin çətin olacağını bildirmişdim. Arxada qalan 90 dəqiqə sübut etdi ki, hazırki Azərbaycan çempionu Gürcüstan birincisindən birbaş üstündür. Düzdür, ötən mövsüm “Zestafoni” Avropanın yaşıl meydanlarında pis təsir bağışlamırdı. Ancaq həmin komandanın iddiası ilə “Neftçi”nin iddiası müqayisəolunmazdır. Komandanızın heyətində xeyli səviyyəli və təcrübəli futbolçu yer alır. Görüşün taleyini məhz həmin futbolçular həll etdi.

***— “Neftçi”nin heyətində konkret hansı futbolçunun oyununu qeyd edə bilərsiniz?***

— Müdafiə xəttini İqor Mitreski gözəl idarə edir. Bu futbolçu böyük təcrübəyə malikdir. İkinci oyunda onun təcrübəsinə böyük ehtiyac olacaq. Həmçinin hücum xəttində yer alan Nikolas Kanales çox səviyyəli futbolçudur. Ümumiyyətlə, komanda özü hücum futbolu sərgiləyərək gözəl təsir bağışladı.

***— İkinci matçla bağlı proqnozunuz?***

— “Zestafoni” öz meydanında ilk dəqiqələrdən daha aqressiv olacaq. Onlar tez qol vurmaq üçün irəli atılacaqlar. Ancaq “Neftçi” kimi təcrübəli komanda bundan istifadə edəcək. Düşünürəm ki, ikinci oyunda yenə sizin komandanız qalib gələcək. Hesab isə 1:2 olacaq (gülür).

***— Futbolçu Canaşiya ilə məşqçi Canaşiyanın fərqi nədədir?***

— Futbolçu karyeramda mən hər görüşə gözlərimdə qığılcımla çıxırdım. Səbrsizliklə qolu güdürdüm, sona qədər döyüşürdüm. Uşaq futbolunda isə səbrli olmaq lazımdır. Məşqçini gərək sevsinlər — bu, uşaq futbolunda uğurun açarıdır. Mənim rəhbərliyim altında məşq edən uşaqlar arasında çoxlu istedadlı futbolçu var. İnanıram ki, yaxın gələcəkdə onların bir çoxu “Lokomotiv”in əsas heyətinin üzvünə çevriləcəklər.

**Araz ƏHMƏDOV,**
**Moskva,**
**Xüsusi olaraq**
**Qol.Az saytı üçün**


## Ukrayna Dövlət Beynəlxalq Təhsil Mərkəzi

Biz tam orta təhsilli Azərbaycan vətəndaşlarını Ukrayna universitetilərində təhsilə dəvət edirik.

1. T.Q.Şevşenko adına Kiyev Dövlət Universiteti.
Beynəlxalq münasibətlər, Hüquq, Jurnalistika
2. Kiyev Dövlət Aviasiya Universiteti.
Aeronaviqasiya, Hüquq, Radiotexnika
3. Donetsk Dövlət Tibb Universiteti.
Müalicə işi, Stomatologiya, Pediatriya, Farmasiya
4. Donetsk Dövlət İdarəetməçilik Universiteti.
İdarəetmə, Xarici İqtisadi əlaqələrin təşkili, Hüquq
5. Karazin adına Xarkov Dövlət Universiteti.
Pedaqogika, Hüquq, İqtisadiyyat, Turizm
6. Xarkov Dövlət Ticarət Universiteti.
Gömrük işində ekspertiza, İqtisadiyyat, Turizm
7. Odessa Dövlət Hüquq Akademiyası Hakimlik.
Prokurorluq və istintaq, Vəkillik
8. Odessa Dövlət Dəniz Universiteti.
Dənizdə yük daşıma, Naviqasiya, Hüquq
9. Mariupol Dövlət Universiteti.
Hüquq, İqtisadiyyat, Beynəlxalq əlaqələr
10. Luqansk Dövlət Aqrar Universiteti.
İqtisadiyyat, Tikinti, Aqranomluq

Əlavə məlumat üçün Ukrayna Elm və Təhsil, İdman və Gənclər Nazirliyi UDBTM-ın Azərbaycandakı nümayəndəsi Aydın Novruzova müraciət edə bilərsiniz.

**(050) 331-99-99 (055) 252-25-25**
**(077) 332-99-99 (012) 437-99-80**


Ənvər Əhməd Tofiq Zeynalova əzizi
**Ənvər Dadaşovun**
vaxtsız vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.


**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2510
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.